# "Hər şey bitdi"

## Ermənistan ictimaiyyəti tam məğlubiyyətini etiraf edir

**Prezident İlham Əliyevin Azərbaycanın Dövlət Suverenliyi Günü ilə bağlı imzaladığı sərəncam Ermənistanda, sözün əsl mənasında, şok effekti yaradıb. Bununla yanaşı, dövlət başçısının dünən Xankəndidə Qarabağ Universitetinin açılışında iştirak etməsi ilə bağlı informasiyanı tirajlayan mediaya, siyasi ekspertlərin açıqlamalarına, sosial şəbəkələrin erməni istifadəçilərinin statuslarına nəzər saldıqda bəlli olur ki, buna görə Paşinyan hakimiyyətini və Qarabağda ləğv edilmiş separatçı rejimin "rəhbərləri"ni kəskin tənqid edirlər.**

Xəbər portallarının rusdilli versiyasında yayılan müsahibədən hissə-hissə açıqlamaların, videoçarxların təqdim olunaraq müzakirəyə çıxarılması məğlub ölkədə ictimai çaşqınlığın artıq xaosa çevrildiyini göstərir.

### "Ümidlərimizin və gələcəyimizin təslim edildiyi gün"

Sosial mediada paylaşılan statuslardan və yazılan şərhlərdən bir neçəsini diqqətinizə çatdırırıq. Siyasi ekspert Tatul Xaratyan feysbuk sosial şəbəkəsində maraqlı paylaşımı ilə diqqət çəkib: "İlham Əliyevin Xankəndiyə səfərini, verdiyi mesajları internetdən izlədim. Bundan bir gün öncə isə Dövlət Suverenliyi Günü ilə bağlı sərəncam da imzaladı. 20 sentyabr tarixi Azərbaycanın fərəh, Ermənistanın isə xəcalət günü kimi tarixə düşdü. Bilirsiniz, bir daha əmin oldum ki, biz biabırcasına uduzmuşuq. Haradadır yekəxanalıq edən "rəhbərlər"imiz? Bəli, Bakıda həbsdədirlər. İlham Əliyev dediyini etdi, artıq "miatsum" ideyamız iflasa uğradı. Tələbələrimizin təhsil aldığı Stepanakertdə (Xankəndi-red.) azərbaycanlılar oxuyacaq. İlham Əliyev onlarla görüşüb, söhbət edib. O, həmişə olduğu kimi, bu dəfə də Xankəndidən verdiyi mesajlara yaxşı hazırlaşmışdı, jestlərin dili savadlı seçilmişdi. Əliyev növbəti dəfə Xankəndidən bəyan etdi və göstərdi ki, Qarabağ Azərbaycandır. Bizim rəhbərlik isə bu sahədə lazımlı biliklərə malik deyil və yarımçıq cavabları ilə özlərini gülməli vəziyyətə salırlar".

Prezident İlham Əliyevin Dövlət Suverenliyi Günü ilə bağlı sərəncamına "məyus" işarəsi qoyan, Xankəndidəki tələbələrlə görüşünü izləyən, profilinə baxdıqda isə restoranlar şəbəkəsinin sahibi olduğu nəzərə çarpan Xoren İştoyan feysbuk səhifəsində yazır ki, səsləndirilən düz fikirlər niyə bəzilərini narahat edir: "Biz yalan danışmırıq. Öz vətəndaş mövqeyimizi nümayiş etdiririk. İstəyirlər gəlib məni aparsınlar. Biznesimi İrəvanda bilməyən yoxdur. 30 ildir dediklərim yekunda təsdiqini tapdı. Qarabağ Azərbaycanındır. Qarabağ problemi bizi 30 ildir çox geri salmışdı. Xankəndidə bir nəfər belə olsun erməni qalmayıb. Orada qalsaydılar, Azərbaycan Qarabağ ermənilərinə daha yaxşı vədlər verirdi, nə var Ermənistanda?"

Arakel İşxanyan adlı istifadəçi teleqram kanallarından birində Azərbaycan Prezidentinin Xankəndidən universitetin açılışından paylaşılan videolara yazdığı rəylə diqqət çəkib: "Ermənistan dağılır, Azərbaycan qarşısında hər gün daha çox məğlub duruma düşür, bəs bizim media orqanları niyə susur? İlham Əliyevin Xankəndiyə səfəri, suverenliklə bağlı imzaladığı sərəncam, verdiyi mesajlar bir erməni kimi məni çox üzdü. Hər il yay aylarında İrəvandan Xankəndiyə əmimgilə istirahətə gedirdik. İndi isə ancaq videogörüntülərə baxmaqla kifayətlənirik".

"X" sosial şəbəkəsində rəy bildirən Artsrun Simonyan adlı istifadəçi isə yazır: "Babam deyirdi ki, türklərlə (azərbaycanlılar-red.) çox yaxşı münasibətlərimiz olub. Bu gün uşaqlarım niyə acından ölməlidir? Ailəmiz adından deyirəm ki, Azərbaycan vətəndaşı olmağa razıyıq. Qarabağda ağır məğlubiyyətə uğradıq. Gəlmişik İrəvana. Çətin durumdayıq. İndi yeməyə çörək tapmırıq, niyə zülmə məruz qalırıq?"

Erməni şərhçi Baqrat Arikyan Prezident İlham Əliyevin Dövlət Suverenliyi Günü ilə bağlı sərəncamını "20 sentyabr-erməni xəyallarının sonu" adlandırıb. Qeyd edib ki, son illərin bizim üçün ən çətin günü, ehtimal ki, ötən ilin sentyabrı idi: "O vaxt göy üzü uçmuş kimi görünürdü. Ümidlərimizin və gələcəyimizin təslim edildiyi gün. O gün hamımız çox qəzəbləndik, amma qarşıdakı ayların daha çətin olacağını təsəvvür etməzdik. Bilməzdik ki, döyüşmədən və itkilər vermədən belə itirməyə davam edəcəyik. Yeni əraziləri təhvil verməyə davam edəcəyik, hər addımda yanımızda Azərbaycan bayraqları görəcəyik. Üstəlik, bizə qarşı olan psixoloji hücumu davam edəcək. Bizim üçün hər şey bitdi. Stepanakert (Xankəndi-red.) artıq yoxdur, bir daha da olmayacaq. Acı olsa da, bu, gerçəkdir. İlham Əliyevin sərəncamı tam məğlubiyyətimizin nidası oldu".

### "Son 4 ildir yaşamırıq, ölürük"

Nikol Qasparyan adlı istifadəçi teleqram kanalında Azərbaycan Prezidentinin Xankəndidə Qarabağ Universitetinin açılışında iştirakı ilə bağlı paylaşılan xəbərə maraqlı rəyi ilə diqqət çəkib: "İlham Əliyev Suverenlik Günü ilə bağlı sərəncam imzalayaraq növbəti dəfə Qarabağın Azərbaycanın olduğunu tam dünyaya göstərdi. Bir vaxtlar dayım uşaqlarının universitetdə oxuduğu Xankəndidə indi azərbaycanlılar təhsil alacaqlar. Bu videoları kaş gözlərim kor olardı, görməyəydim. Tariximizin ən böyük matəmini yaşadıq. Paşinyan isə hakimiyyətdə qalmağın yollarını axtarır".

Qraçya Tatevosyan isə "Odnoklassniki"də İlham Əliyevin Dövlət Suverenliyi Günü ilə bağlı sərəncamına münasibət bildirib. Profilinə baxdıqda İngiltərədə yaşadığını qeyd edən istifadəçi məyusluğunu belə ifadə edib: "Azərbaycan Prezidenti 8 il əvvəl apreldə S.Sarkisyana, 4 il öncə isə Qarabağı geri almaqla Paşinyana yüksək peşəkarlığın necə olduğunu göstərdi, əsl dərs verdi. 9 il öncə Stepanakertdə (Xankəndi-red.) əmimgildəydim. Maşınla keçdiyimiz, bayramları qeyd etdiyimiz meydanda indi azərbaycanlılar bayram edir. Bitdi. Qarabağı tam itirdik".

Bu arada Qarabağdan Ermənistana qayıdan ermənilər "4rd.am" saytının müxbiri ilə söhbətləri zamanı ağır günlər yaşadıqlarını ifadə ediblər. Nəşrin "İrəvanda İkinci Qarabağ müharibəsinin 4 illiyi ilə bağlı nə düşünürlər?" reportajında erməni vətəndaşları çox ağır günlər yaşandığını, bunun ölkə üçün dəhşətli olduğunu qeyd ediblər. Ermənistan vətəndaşı bu xüsusda bildirir: "Son 4 ildir yaşamırıq, ölürük. Bu, ömür deyil. Hesab edirəm ki, bu, bizim üçün bir rüsvayçılıqdır. İlham Əliyev Stepanakertdə (Xankəndi-red.) universitet açır, parad keçirir, Azərbaycan bayrağını ucaldır… Sülh olmasını istəyirik (ağlayır)".

Reportajda da qeyd edildiyi kimi, bu ölkənin əvvəlki vəziyyətə qayıtması üçün uzun illər lazım olacaq. Amma Ermənistan varlığını davam etdirməkdən ötrü Azərbaycanla münasibətlərini normallaşdırmalıdır. Əks halda məhvə məhkumdur.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 21 sentyabr (№206).- S.9.